# Vətən fədailəri

***Hər bir insanda hələ körpəlikdən elinə-obasına, doğulduğu torpağa bağlılıq, istək sözlərində, oyunlarında, düşüncə tərzində hiss olunur. İllər keçdikcə, həyata baxışı zənginləşdikcə bu bağlılıq güclü bir sevgiyə çevrilir, bu sevgi insan ömründəki bütün sevgilərdən öndə olur. Bu bütün sevgilərin əzəli olan Vətən sevgisidir. Vətən oğul deyərsə, ölümün "gözünə" dik baxar belə sevgi yaşayanlar. Bu 2020-ci ilin sentyabrında başlanan Vətən müharibəsində demək olar ki, tam mənada öz təsdiqini tapdı. İstedadlı şairimiz Məmməd Araz şeirində deyildiyi kimi: "Vətən mənə oğul desə..." kəlamı vətənpər gəncləri Vətənin müdafiəsinə və düşmən tapdağında olan torpaqlarımızı azad etmək üçün döyüşlərə səslədi. Ölkə rəhbərinin çağırışına hər kəs ürəyinin istəyi ilə qoşuldu. Məhz belə vətənsevər gənclərdəndir Azər, Bəhruz, Ruslan... Onlar iyun ayında doğulanlardır...***

**İyun doğumlu şəhadət yolçularından biri də obamızın igid oğlu, Aprel döyüşçüsü Sahil Şirinovdur.**

**Sahil Şirinov** - 1992-ci il 24 iyunda Bum kəndində doğulmuşdur.

2010-cu ildə Heydər Əliyev adına Azərbaycan Ali Məktəbinə daxil olmuş, 2014-cu ildə motoatıcı tağım komandiri ixtisası üzrə məktəbi bitirərək leytenant hərbi rütbəsi almışdır.

Sahil Şirinov 2016-cı ilin aprel ayında Azərbaycan-Ermənistan təmas xəttində baş verən atışma zamanı qəhrəmancasına həlak olmuşdur. Şəhadət yolçusu olan Sahil Şirinov Bum qəsəbəsində dəfn olunmuşdur.



O, Prezident İlham Əliyevin sərəncamı ilə "Hərbi xidmətdə fərqləndiyinə görə" III dərəcəli medalla təltif olunmuşdur.

**Bəhruz Abuşov** - 1983-cü il iyunun 18-də Nohurqışlaq kəndində doğulmuşdur. O, 1989-2002-ci illərdə Nohurqışlaq kənd orta məktəbini, 2000-2005-ci illərdə Heydər Əliyev adına Ali Hərbi Məktəbi bitirmişdir. 2005-2011-ci illərdə baş leytenant, tağım komandiri, 2011-2014-cü illərdə Azərbaycan Silahlı Qüvvələrində kapitan, bölük komandiri, 2014-2017-ci illərdə mayor, tabor komandirinin müavini , 2017-2020-ci illərdə könüllü olaraq "Xüsusi təyinatlı qüvvələrdə" kimya xidmət rəisi olmuşdur.



2020-ci ilin noyabr ayının 8-də Şuşa uğrunda gedən döyüşlərdə şəhid olmuşdur.

İgid hərbiçimiz xidmət illərində və Vətən Müharibəsində bacarıq və şücaətinə görə 11 medal və ordenlə təltif olunmuşdur.

O, Nohurqışlaq kəndində dəfn olunmuşdur. Nohurqışlaq kəndində yerləşən Səttar Bəhlulzadə küçəsinin başlanğıcından Hüseyn Cavid küçəsinin kəsişməsinədək olan hissəsinə şəhidin adı verilmişdir.

**Azər Musazadə** - 1998-ci il iyunun 25-də rayonumuzun Şəfili kəndində doğulmuşdur. Orta təhsilini Çarxana kəndində almış, Azərbaycan Texniki Universitetində ali təhsil almışdır. 2019 - 2020-ci illərdə həqiqi hərbi xidmətdə olmuşdur. 2020-ci il sentyabrın 27-dən etibarən Azər Azərbaycan torpaqlarının düşmən əsarətindən azad olunması və ərazi bütövlüyünün bərpa olunması üçün başlanan müharibədə iştirak etmişdir. Suqovuşanın azad olunmasında igidlik göstərən döyüşçümüz oktyabrın 13-də döyüş tapşırığını yerinə yetirərkən həlak olmuşdur.



Şəhid Azər Çingiz oğlu Musazadə "Vətən uğrunda", "Cəsur döyüşçü", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

**Ruslan İdrisov** - O, əslən rayonumuzun Qəmərvam kəndindən olsa da 2002-ci il iyunun 6-da Ukraynanın Odessa şəhərində anadan olmuşdur. Sonralar ailəsi ilə birgə Qəbələnin Nic kəndinə köçmüş, orada yaşamışdır. 2009-cu ildə Qəbələ şəhər 3 saylı məktəbin I sinifinə daxil olmuş, 2020-ci ildə isə Zarağan kənd 2 saylı orta məktəbini bitirmişdir. Həmin ilin iyul ayının 11-də həqiqi hərbi xidmətə çağırılmışdır. Əsgəri xidmətə Goranboy rayonunda başlamışdır.



Ruslan Vətən Müharibəsi zamanı döyüşlərdə igidliklə döyüşmüşdür. Suqovuşanın azad olunmasında mərdlik nümunəsi göstərən döyüşçümüz Goranboy rayonunun Tapqaraqoyunlu kəndi istiqamətində döyüş tapşırığını yerinə yetirərkən şəhid olmuşdur. Gənclik arzuları, təbəssümü üzündə donan şəhidimiz "Vətən uğrunda", "Cəsur döyüşçü", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

Şəhidimiz Soltannuxa kəndində dəfn olunmuşdur.

**BİBİXANIM.**

# Torpağa hopana yurd oldu bu yurd, Səmaya qalxanda şimşək donunda...

**«Seçilmiş» ana**

İnsan var ki, dili ilə danışar, insan var ki, ilk baxışda çox sakit, səssiz-səmirsiz görsənər. Lakin simasına, ələlxüsus gözlərinə gözün dikilərsə, diqqətinə varsan orada o insanın qəlbində kükrəyən bir səs, fırtına görərsən... Sevinc və kədərin qədəri - miqdarının mizan tərəzisinin belə düzgün ölçə bilmədiyi bir kükrəyiş... Belə insanlar övlad itirən valideynlər, haqsızlıqlarla daha çox üzləşənlər, daha çox həsrət yaşayanlardır.

Uzaqdan-uzağa tanısam da, o günü daha yaxından tanıdım o ananı. Simasına baxdım, gözlərindən oxudum qəlbinin «tufanlarını»... Axı göz ürəyin aynasıdır! O ana analar arasında seçilmişlərdən idi - insanlar arasında seçilmiş ən ali rütbə sakinləri - şəhidlərdir, sonra isə onların valideynləri. O ana da bir şəhid anası idi. Məhz 16 yaşında həyat yükünün ağırlığını çiyinlərində hiss edən, xoşbəxt həyat qurmaq üçün daim mübarizə aparan və arzuları nakam qalan bir oğulun anası.

Brilyant ananı ətrafdan seyr etmişəm həmişə - şəhid anası kimi. Sakittəbiət, üzündə həyat çətinliklərinin iz saldığı, mehriban bir qadın kimi tanımışam onu. Şəhidlərə həsr olunmuş tədbirlərdə, şəhid məzarlarının ziyarətlərində daima görürəm onu. Dərd ortaqlarının hər toplumunda iştirak edər, bala həsrətinin yanğısına onlarla olarkən qismən «su səpilərdi» sanki...

Brilyant xanım şəhid balamız Tale Şirinovun anasıdır.

**Taleyə tale yazılanda...**

Allah hər kəsə bir tale yazar: kiminə uzun ömür yazar - ancaq yaşanılan bu uzun ömür cismən yoxluğu ilə yaddaşlardan silinər, illər ötdükcə heç yaşanılmamış kimi xatırlanmaz. Ömür də var ki, az yaşanılsa belə insanların yaddaşına həkk olar, tarixin qan yaddaşına iz salar. Onlar insanlığın əsil simvoluna çevrilənlərin ömürləridir, insanlığın şəhidləri - şəhadət yolçularıdır. Vətən şəhidləri insanlığın ən ali rütbəliləridirlər. Çuxur Qəbələ kənd sakini Tale Qədir oğlu Şirinov da məhz belə ömür sahibidir.

Tale Şirinov 1996-cı il noyabrın 21-də rayonumuzun Çuxur Qəbələ kəndində anadan olmuşdur. Çuxur Qəbələ kəndində Ə. Məmmədov adına məktəbdə orta təhsil almışdır. Həqiqi hərbi xidmətini başa vurduqdan sonra hərbi sahədə işləmək, hərbin sirlərini öyrənmək istəyir. Torpaqlarımızın yağı tapdağında olması hələ uşaqlıqdan onu narahat edirdi və bir vətəndə vətən övladlarının «qaçqın», «məcburi köçkün» kimi yaşaması qəlbini ağrıdırdı. O, düşünürdü ki, Vətənin müdafiəçisi olmaq üçün hərbin sirlərini öyrənmək, mükəmməl hərbçi kimi yetişmək lazımdır.

Həqiqi hərbi xidmətdə olarkən Aprel döyüşləri baş vermişdi və orada iştirak edə bilməsə də, döyüşən əsgərlərimizin igidliyini izləmiş, 4 günlük müharibədə qazanılan uğurlara görə ordumuzun əsgərləriilə fəxr etmişdir. 2020-ci ilin iyulunda Tovuz hadisələri, Polad Həşimovun igidliyi və şəhadəti hərbçi peşəsini ona daha çox sevdirmişdi. Əsil vətənsevər bir insan kimi Vətən torpaqlarını düşmən əsarətindən xilas etmək onun ən başlıca arzusu olmuşdur. Tale Şirinov 1-ci



manqa komandiri - kiçik çavuş kimi xidmətə başlamışdır. İşlədiyi müddət ərzində həmişə çalışqanlığı və peşəsinə hörməti ilə seçilmişdir. 2020-ci ilin sentyabrında başlanan 44 günlük müharibədə - döyüşlərdə igidliklə döyüşmüşdür. Tale Şirinov Suqovuşan, Talış kəndi istiqamətində gedən döyüşlərdə qəhrəmanlıqla döyüşür və oktyabrın 8-də şəhidlik zirvəsinə ucalır. Onun döyüş şücaəti «Suqovuşanın azad olunmasına görə», «Laçının azad olunmasına görə» medallarına layiq görülür.

**Torpağından duman kimi yığılsam...**

Bu torpaqda doğuldu, Vətən məhəbbəti, sevgisi ilə böyüdü, zəhmətdə bərkidi, çətinliklərin yolçusu oldu, ancaq həmişə qəlbindəki arzuları reallaşdırmaq üçün mübariz oldu, haqq yolunun yolçusu oldu. Həyatda cismən yaşarkən arzularının reallığını tam görə bilmədi Tale. Tale Tale üçün belə yazılıbmış... Zəfər gününün real sevincini yaşaya bilmədi, uğrunda qanını, canını verdiyi Vətən torpaqlarının üzərində Zəfər paradında addımlaya bilmədi...

Ailəli idi, dünyaya gələ körpəsinə özü Mərd adını seçmişdi... Ona körpəsini doyunca görmək və sevib-seçdiyi adla onu səsləmək nəsib olmadı... Həmişə qəm yüklü anasının simasındakı sevinc işartılarını daha da canlandıra bilmədi, ailəsinin - bacı-qardaşlarının onunla duyacağı qürurunu gözlərində oxuya bilmədi... Bax, ona görə Vətən torpağından duman olub yığıldı... Göylərdə məskən saldı... Ruhu ilə seyr etdi bu həyatı, bu dünyanı...

Ruhu şad oldumu?! Vətəni azad oldu, oğul balası - Mərd böyüməyə başlamışdı. Ruhu şad oldu. Ancaq Vətəni qədər sevdiyi anasının üzündə qəm yükü, həsrət «çələngi» onun ruhunu belə sarsıdır. Bala itkisi qədər ağır yük ola bilməz. Amma övladının şəhadətinin qüruru onu qismən «ovutsa» da... oğul yadigarının həsrəti, ananın simasındakı acı və yanğının dərin izlərini aşkarcasına hiss etdirir... Kaş ki, insanlar - hər kəs bu gününü, sabahını; əməllərinin hansı formada olursa olsun bumeranqlığını düşünə və nəticə çıxarmağı bacara.

**Tanıyırsınızmı?..**

Tale Şirinovun ailəsi kənddə yaxşı və nümunəvi ailə kimi tanınıb. Zəhmətkeş, halal çörəyini qazanan, mehriban bir ailə olmuşdur. Ailədə 5 övlad - 3 qardaş - Məhyəddin, Elməddin, Tale, 2 bacı - Pərvanə, Bahar böyümüşdür. Tale ailənin 5-ci övladı olmuşdur. 2011-ci ildə Taledən böyük bacısı dünyasını dəyişmiş, bir övladı yadigar qalmışdır. Həmçinin Tale 16 yaşında olarkən atası Qadir həyatla vidalaşmışdır. Bu itkilər ona çox ağır kədər bəxş etmişdir. Tale özündən böyük qardaşı olsa belə həmişə onun fikir və düşüncələri ilk növbədə nəzərə alınmışdır. Hər zaman anası Brilyant xanıma dəstək olmuşdur.

Tale 2018-ci ildə ailə qurmuşdur. O, şəhid olarkən övladı 3 aylıq körpə idi. Şəhidimiz doğulduğu kənddə dəfn olunmuşdur. Onun xatirəsi onu tanıyanların, eləcə də vətənpərvər insanların qəlbində, qan yaddaşında əbədi yaşayır və yaşayacaq!

**Qartal qürurlu**

Tarixi yenidən yazan igidimiz Tale qartal cürətli, qartal vüqarlı, qürurlu bir gənc olmuşdur. Qorxmaz və mənəvi zəngin biri olan şəhidimiz öz həyat amalı ilə qartal kimi yüksəkliklərdə məskən saldı, şimşəklərə yaxın oldu. Qartal isə deyər ki, mən zirvədə olarkən də gözüm həmişə aşağıdadır. Qartal şimşəklərə yaxın olaraq göylərə, yüksəklərə uçaraq məskunlaşsa da həmişə ətrafını seyr edər.

Brilyant ana, Talenin baxışları hər an səninlə! Sənin nəfəsinlə yaşayan övladın daim yüksəkliklərdən səni izlər! Üzündəki qəm «çələngindən» narahat olsa belə... Onun xatirələrini sən də sevinc çələnginə qərq et ki, ruhu daima xoş olsun! Axı şəhidlər əbədiyaşarlar, ölümsüzlərdir!

**BİBİXANIM.**